# “ANİMAFİLM Lənkəranda”

**Cizgi və applikasiya filmlərini uşaqdan-böyüyə hamı maraqla izləyir. Lənkəranda şəhər Mədəniyyət Mərkəzində keçirilən “ANİMAFİLM Lənkəranda” adlı festivala da seyrçilər böyük maraq göstəriblər.**



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və Animasiya Assosiasiyası İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan festivalda ümumilikdə 900-dən çox azyaşlı və yeniyetmə iştirak edib. Onlar 29 film izləyib, səsvermədə iştirak ediblər. Tədbir çərçivəsində nümayişlərdən sonra geniş müzakirələr aparılıb və qaliblər müəyyənləşdirilərək mükafatlandırılıblar.

Mərasimdə Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva, Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov və Lənkəran şəhər Mədəniyyət Mərkəzinin direktoru Anar Kəkəyev çıxış edərək layihə haqqında fikirlərini bölüşüblər. Bildirilib ki, Animasiya Assosiasiyası Azərbaycanda milli animasiya kino sənətinin inkişafına yardım etmək məqsədilə 2018-ci ildən etibarən Bakı şəhərində ANİMAFİLM Beynəlxalq Animasiya Festivalını keçirir. Ölkənin digər şəhərləri üçün nəzərdə tutulan bölmə “ANİMAFİLM festivalı regionlarda” adlanır. Bundan əvvəl layihə çərçivəsində Şəkidə və Naxçıvanda da tədbirlər reallaşıb.

Lənkəranda “Anidoc” adlı sənədli animasiya təlimləri də keçirilib. Rejissorlar Nəzrin Ağamalıyeva və Elçin Hami Axundov 2 gün ərzində 10 nəfər iştirakçıya film layihələrinin necə işləyib hazırlanmasını, təqdim və istehsal olunmasını öyrədiblər.

***XQ***

Xalq qəzeti.- 2024.- 21 may, № 105.- S.10.